*Zaqatala:*

# Qadınlar dövlət quruculuğunda fəal çalışır

Müstəqil Azərbaycanın bugünkü zirvələri fəth etməsində müxtəlif sahələrdə çalışan, öz şərəfli işlərindən zövq alan, torpağını, vətənini sevə-sevə yaşayan, onun hər bir çağırışına vicdanının səsi, ürəyinin hərarəti ilə cavab verən, yeri gələndə qəhrəmanlıq nümunəsi göstərən, dövlətin dayaqları adlandırılan qadınların da böyük əməyi var. Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın timsalında yuxarıda deyilənlərin canlı şahidiyik. Ölkəmizdə qadınların rəhbər vəzifələrə irəli çəkilməsinə, onlara hər sahədə etibar və inam bəslənilməsinə, etimad göstərilməsinə böyük önəm verilir. Dövlətimiz tərəfindən həmişə qadınların əməyi yüksək qiymətləndirilir. Zaqatalada da belədir. İndi burada 116 nəfər qadın rəhbər vəzifədə çalışır. Bölgə müxbirimiz rayonda ayrı-ayrı sahələrdə çalışan, ötən il və bu ilin əvvəlində ölkə Prezidentinin sərəncamı ilə müxtəlif dövlət mükafatlarına layiq görülən qadınlardan müsahibələr almışdır.

**Çövharat İbrahimova, "Tərəqqi" medallı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Zaqataladakı Ailə və Uşaqlara Dəstək Mərkəzinin direktoru:**



- Rayonumuz çoxmillətlidir. Müxtəlif xalqların, etnik qrupların nümayəndələri mehriban, səmimi, vahid ailənin üzvü kimi yaşayır, fəaliyyət göstərir, yeni-yeni uğurlara imza atırlar. Əlbəttə, burada rayonumuzun qadınlarının əməyini unutmaq olmaz. Axı, qadın ana olmaqla yanaşı, istehsalatda çalışır, müəllimlik edir, əhalinin sağlamlığı keşiyində dayanır, valideynlərin inam və etibar ünvanı olan uşaq bağçalarında gələcəyin etibarlı dayaqlarını yetişdirirlər. Möhtərəm Prezidentimiz İlham Əliyev, Azərbaycanın birinci xanımı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva qadınlara böyük qayğı ilə yanaşır, əməyimizə həmişə yüksək qiymət verirlər. Yola saldığımız 2017-ci ildə mənim dövlət başçımızın sərəncamı ilə "Tərəqqi" medalına layiq görülməyim də bunun bariz nümunələrindəndir. Bu yüksək mükafata rayonumuzda yaradılan ürəkaçan işgüzarlıq, qayğıkeşlik əhval-ruhiyyəsi sayəsində nəsib ola bilmişəm. Rəhbəri olduğum mərkəz Zaqatalada olan qadınların, uşaqların bu və ya digər problemləri ilə məşğul olur. Ötən il mərkəzimizə 202 nəfər müraciət etmişdir. Problemlər, müraciətlər müxtəlif istiqamətli olsa da, il ərzində rayon rəhbərliyinin, həmçinin ayrı-ayrı qurumların yaxından köməkliyi, dəstəyi ilə onların həllinə nail ola bilmişik. Uşaqlara 7 sahə üzrə xidmətlər göstərilir. Mərkəzimizin üzvlərinin, lazım gələndə dəvət olunan ayrı-ayrı qurumların nümayəndələrinin iştirakı ilə vaxtaşırı ailə səfərləri təşkil edilir. Əlil və xüsusi qayğıya ehtiyacı olan uşaqların müxtəlif peşələrə yiyələnmələri üçün təhsil kursları təşkil olunur.

Hamı kimi Zaqatala qadınları da ulu öndərimiz Heydər Əliyevin uzaqgörən strategiyasının uğurla həyata keçirilməsindən bəhrələnərək bugünkü xoş ovqatlara, yüksək mükafatlara nail olmuşuq.

Aprelin 11-də seçkilərdə mütəşəkkil iştirak edəcəyik. İnanırıq ki, xalqımız ən etibarlı namizədə səs verəcəkdir.

**Yetər Muradova, Əməkdar müəllim - Zaqatala şəhərindəki Humanitar Fənlər Gimnaziyasının ingilis dili müəllimi:**



- Artıq 26 illik müəllimlik təcrübəm var. 1991-ci ildə o vaxtkı Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun İngilis dili fakültəsini qurtarıb təyinatla doğma rayonuma, onun ən böyük kəndlərindən olan Suvagilə işləməyə gəldim. Sevib seçdiyim və dərinliklərinə yiyələndiyim İngilis dilini beynəlxalq dil kimi həmişə şagirdlərimə də sevdirməyə çalışmış və buna nail olmuşam. Bu gün rayonumuzun müxtəlif təhsil ocaqlarında, eyni zamanda respublikamızın paytaxtında, Azərbaycandan kənarlarda da sayılıb-seçilən yerlərdə çalışan şagirdlərim var və onlar həmişə mənə bu gün bütün dünyada gərəyə çatan bu xarici dili öyrətdiyimə görə təşəkkür dolu məktublar yazır, minnətdarlıq edirlər. Mən bundan böyük fərəh duyuram. Amerikanın Kaliforniya ştatında 3 aylıq təkmilləşmə kursu keçmişəm. Məndə bu sevgi və məhəbbətin yaranmasının başlıca səbəbi ölkəmizdə müəllim əməyinə bilik və bacarığına yüksək dəyər verilməsi, qayğı göstərilməsidir. 2008-ci ildə "İlin müəllimi" olmağım, 2017-ci ildə isə respublikanın Əməkdar müəllimi adına layiq görülməyim mənim də dövlətin qayğılarından bəhrələndiyimi göstərir. Qadın əməyinə, zəhmətinə verilən dəyər bizi daha yaxşı işləməyə ruhlandırır. Əlbəttə, bu tək mənə yox, çalışdığım təhsil ocağına da verilən böyük qiymətdir.

2018-ci il aprelin 11-də olacaq seçkilərdə biz Azərbaycanımızın Prezidentini seçəcəyik. Müstəqilliyinin üçüncü on illiyini yaşayan Azərbaycanımızda uca zirvələr fəth etməyə nail olmuşuq. O, əzəmətli bayrağı bu gün əlində möhkəm saxlayıb ucalarda gəzdirənlərlə gələcəkdə də çalışmaq arzusu, istəyi ilə səsvermə məntəqəsinə gedəcəyik.

**Tükəzban Həmzəyeva, "Tərəqqi" medallı - Dövlət İdarələri və İctimai Xidmət Sahələri İşçiləri Həmkarlar İttifaqları Zaqatala Rayon Komitəsinin sədri:**



- Həmkarlar ittifaqları həmişə hamıya lazım olan təşkilatdır. Adamların sosial həyatı, əmək münasibətləri, sağlamlığı, asudə vaxtının səmərəli təşkili, lazımi istirahəti, əməyinin təhlükəsizliyi ilə maraqlanmaq, onların mövcud imkanlar səviyyəsində təşkilini təmin etmək həmkarlar ittifaqlarının fəaliyyətinin ana xəttidir. Rayon təşkilatının sədri kimi bu məsələləri həmişə diqqət mərkəzində saxlayıram. Təşkilatın 417 nəfər üzvündən 164 nəfərini qadınlar təşkil edir. Onlar icra hakimiyyətində, ərazi icra nümayəndəliklərində, sosial müdafiə fondunda, ərazi vergilər idarəsində, bir sözlə, 18 müxtəlif qurumda fəaliyyət göstərirlər. İttifaqın bütün üzvlərinin, xüsusilə də qadınların ailə, sosial həyat qayğıları daim diqqətimizdədir. Təkcə ötən il 6 nəfər qadına ölkəmizin müxtəlif müalicə ocaqlarına, istirahət mərkəzlərinə putyovkalar verilmişdir. Ölkəmiz hazırda çox böyük əhəmiyyətli siyasi kampaniya ərəfəsindədir. Aprelin 11-də keçiriləcək Prezident seçkilərinə rayonumuzda da hərtərəfli hazırlıq görülür. Çalışacağıq ki, seçkilərdə fəal iştirak edərək müstəqilliyimizin qorunub möhkəmləndirilməsinə, dövlətimizin beynəlxalq nüfuzunun artmasına, respublikamızın gələcək inkişafına, firavanlığına səs verək.

**Rasim AMANOV,**
**"Respublika".**